# Akademiyanın 80 illik yubileyinə və AMEA-nın Ümumi yığıncağına hazırlıq məsələləri müzakirə edilib

**Akademiyanın Rəyasət Heyətinin binasında AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin rəhbərliyi ilə müşavirə keçirilib.**

Müşavirədə Akademiyanın 80 illik yubileyinə və AMEA-nın Ümumi yığıncağına hazırlıq məsələləri müzakirə edilib. Tədbirdə Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri və bölmələrin elmi katibləri iştirak ediblər.

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxış edərək Azərbaycan Milli Elmlər Akademiyasının ötən 80 ildə şərəfli yol keçdiyini, alimlərimizin əldə etdiyi elmi nailiyyətlərlə dövlətimizin iqtisadi inkişafına, həmçinin maddi mədəniyyətimizin qorunmasına, azərbaycançılıq ideologiyasının cəmiyyətimizdə güclənməsinə, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsinə öz töhfəsini verdiyini söyləyib. Qeyd edib ki, bu şərəfli tarixin yolları 2025-ci ildə, Elmlər Akademiyasının yaranmasının 80-ci ilində Rəyasət Heyəti tərəfindən qəbul olunmuş Tədbirlər planında nəzərdə tutulan tədbirlərlə, nəşrlərlə ictimaiyyətə təqdim ediləcək.

Daha sonra müşavirədə AMEA-nın Ümumi yığıncağına hazırlıq məsələləri müzakirə olunub.

AMEA-nın Ümumi yığıncağına hazırlıqla bağlı cari işlərin vəziyyəti, o cümlədən hesabat və təqdimatların müasir tələblərə uyğun hazırlanması və çap məsələləri barədə akademik İsa Həbibbəyliyə ətraflı məlumat verilib.

AMEA rəhbəri Ümumi yığıncağın təsdiq olunmuş gündəliyinə uyğun olaraq, yekun hesabat və təqdimatların müasir informasiya texnologiyaları əsasında hazırlanması ilə bağlı tapşırıqlarını çatdırıb. Ümumi yığıncaqdan əvvəl elmi nailiyyətlərə həsr olunmuş sərgilərin yüksək səviyyədə təşkili ilə bağlı elmi bölmələrin rəhbərlərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, 2024-cü ilin elmi yekunlarına həsr edilmiş AMEA-nın Ümumi yığıncağı fevralın 20-də keçiriləcək.

# "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"ndan irəli gələrək AMEA-nın qarşısında duran vəzifələrə həsr olunmuş müşavirə



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Rəyasət Heyəti aparatının "Elektron Akademiya" şöbəsinin əməkdaşları ilə növbəti müşavirə keçirib.**

Tədbirdə dövlət başçısının "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında" 16 yanvar 2025-ci il tarixli Fərmanından irəli gələrək AMEA-nın qarşısında duran vəzifələr müzakirə olunub.

Akademik İsa Həbibbəyli sözügedən Fərmanın Tədbirlər Planının Azərbaycan Milli Elmlər Akademiyası qarşısında da vəzifələr qoyduğunu, sənədin "Dövlət qurumlarının informasiya təhlükəsizliyinə aid əsas parametrlər siyahısının və məqbul hədlərin müəyyən edilməsi, informasiya təhlükəsizliyi mühitinin diaqnostikası" ilə bağlı 1.1.2. bəndinin icraçıları sırasında AMEA-nın da yer aldığını söyləyib. Qeyd edib ki, dövlət başçısının tapşırığının icrasını təmin etmək məqsədilə AMEA-nın Rəyasət Heyətinin fevralın 10-da keçirilən iclasında qərar qəbul olunub, Akademiyanın elmi müəssisə və təşkilatlarına təkliflərini hazırlaması tapşırılıb.

Akademik İsa Həbibbəyli bu məsələnin AMEA-da elektron xidmətlərin təşkilinə və keyfiyyətinin yüksəldilməsinə məsul olan "Elektron Akademiya" şöbəsinin əməkdaşları ilə müzakirə edilməsinin zəruri olduğunu bildirib və müşavirənin bu məqsədlə keçirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, "Elektron Akademiya" şöbəsi tərəfindən qısa müddət ərzində AMEA-da elektron xidmətlərin müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində mühüm addımlar atılaraq bir çox uğurlar əldə olunub və sözügedən Fərmanın Akademiya qarşısında qoyduğu tapşırığın icrasında şöbənin üzərinə böyük məsuliyyət düşür.

Akademik İsa Həbibbəyli "Elektron Akademiya" şöbəsinin əməkdaşlarına dövlət başçısının "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında" 16 yanvar 2025-ci il tarixli Fərmanı ilə yaxından tanış olaraq öz təkliflərini hazırlaması ilə bağlı tapşırıqlarını verib.

Həmçinin cari ildə AMEA-da işıq üzü görən nəşrlərin "AMEA Dərgi Parkı"na daxil edilməsi və DOI identifikatorunun verilməsi ilə bağlı tapşırıqlarını çatdırıb.

Daha sonra AMEA Rəyasət Heyəti aparatının "Elektron Akademiya" şöbəsinin müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranov təqdimatla çıxış edib, rəhbərlik etdiyi şöbənin qarşıya qoyulmuş tapşırıqların öhdəsindən inamla gələcəyini bildirib.